**Çırpınırdı Qara dəniz**

XX əsr Azərbaycan şeirini özünün poetik cəsarəti və kəşfləri ilə zənginləşdirən Əhməd Cavadın "Qara dəniz" şeiri bədii təfəkkürümüzün hüdudlarını misilsiz dərəcədə genişləndirən əsərlərdəndir. 1914-cü ildə Birinci Dünya savaşında Türkiyənin iştirakından hədsiz duyğulanan şair bu şeiri ilə təkcə Türkiyəyə deyil, bütün türklüyə təəssübünü və sevgisini bədii təcrübədə az rast gəlinən bir ilham və ehtirasla ifadə etmişdi.

Çırpınırdın Qara dəniz
Baxıb Türkün bayrağına!
"Ah!..." deyərdim, heç ölməzdim
Düşə bilsəm ayağına.

Professor Asif Rüstəmli "Qara dəniz" şeirinin baş mühərrir Mirzə Bala Məhəmmədzadə tərəfindən Azərbaycan Cümhuriyyəti dövründə nəşr edilən ilk milli jurnal olan "Gənclər yurdu"nun birinci sayında çap olunduğunu göstərir.

Əhməd Cavadın "Qara dəniz"i amansız və "mədəni" yırtıcılarla üz-üzə gəlmiş türk dünyasını birliyə və həmrəyliyə çağırışı ilə böyük əhəmiyyətə malik olması öz yerində. Amma bu şeir Azərbaycan etno-poetikasının unutduğu və yadırğadığı bədii təxəyyül qatlarından doğulduğuna görə də hədsiz dəyər daşıyırdı. Akademik Yaşar Qarayev "Cümhuriyyət dövrü və onun poeziyada yaddaşı - Əhməd Cavad" məqaləsində aşağıdakıları vurğulayırdı: "...Ə.Cavadın sonralar bütün Türkiyədə az qala milli himn qədər kütləvi şəkildə oxunan və sevilən əsəri "Çırpınırdın Qara dəniz" olur... Göygölə, milli bayrağa, Qara dənizə və Dəli Kürə ən yaxşı şeirləri o illərdə Əhməd Cavad yazıb. "Azərbaycan sözü" ilk dəfə bu rübabda poetik mübtədaya, xəbərə dönüb, Əhməd Cavadın yazdığı nəğmədə təkrir və nəqarət olub".

"Qara dəniz" metaforası türk yaddaşının məğlubiyyətlərdən öncəki - zəfərlər və qalibiyyətlər dövrünün işarəsi idi. Təbii ki, Qara dəniz həsrəti milli yaddaşda yaşayırdı. Bir an da, bir gün də unudulmamışdı. Amma milli yaddaş ağrısının estetik yaddaş faktına çevrilməsindən ötrü nə az, nə çox, bir neçə yüz il lazım olmuşdu.

Əgər türk dünyasının tarixi faciələrini Hüseyn Cavid bədii təfəkkürə gətirmişdisə, onun taleyinin müasir ölüm-dirim çağlarını və çabalarını ədəbiyyata gətirmək Əhməd Cavadın şərəfli və danılmaz xidmətidir. Türküstanda Əbdülhəmid Çolpan və Türkiyədə Mehmet Akif Ersoy kimi Əhməd Cavad da Azərbaycanda millət üçün döyüşən və çarpışan poeziyanın banisidir:

Beləliklə, Əhməd Cavadın "Qara dəniz"ində coğrafi məkan və ünvan yüz faizli etno-poetik işarə kimi çıxış edir. Qara dəniz türkün və türk dünyasının adının, şanının və şərəfinin ifadəsi kimi mənalandırılır.

Çırpınırdı Qara dəniz
Baxıb Türkün bayrağına!
"Ah!..." deyərdim, heç ölməzdim,
Düşə bilsəm ayağına.

Ayrı düşmüş dost elindən,
İllər var ki, çarpar sinən!..
Vəfalıdır gəldi, gedən,
Yol ver Türkün bayrağına!

İncilər tök, gəl yoluna,
Sırmalar səp sağ, soluna!
Fırtınalar dursun yana,
Salam Türkün bayrağına!

"Həmidiyyə" o Türk qanı!
Heç birinin bitməz şanı!
"Kazbek" olsun ilk qurbanı!
Heyran Türkün bayrağına!

Dost elindən əsən yellər,
Bana şer, salam söylər.
Olsun turan bütün ellər
Qurban Türkün bayrağına!
Yol ver Türkün bayrağına!!!